# Sağlamlıq mərkəzi kimi tanınan Naftalan tezliklə həm də turizm şəhəri olacaq







Naftalan Şəhər İcra Hakimiyyətində Azərbaycan Turizm Bürosunun (ATB) baş icraçı direktoru Florian Zenqstşmid, Dövlət Turizm Agentliyinin (DTA) Regional turizm inkişafı sektorunun müdiri Elgün Cavadov, ATB-nin Brend və marketinq kommunikasıyaları sektorunun müdiri Fidan Əliyeva, ATB-nin Turizm sənaye və destinasiyanın inkişafının idarə edilməsi sektorunun müdiri İlkin Cavadov, Gəncə Destinasiya Menecment Təşkilatının direktoru Zaur Bayramov ilə görüş keçirilib.

Görüşdə Naftalanın turizm potensialının artırılması, qarşıda görüləcək işlər barədə müzakirələr aparılıb, ATB-nin və DTA-nın dəstək olduğu şəhərdə bir sıra yeni layihələrin həyata keçirilməsinə başlanıldığı vurğulanıb.



ŞİH-nin başçısı Vüqar Novruzov və qonaqlar Naftalanın girişində tanıtma lövhəsinin qarşısında turistlərin marağına səbəb olacaq yeni yaradılacaq məkana, avtomobillər üçün xüsusi dayanacağın və şəhərin digər istiqamətindəki girişində yeni tanıtma lövhəsinin quraşdırılacağı ərazilərə, həmçinin şəhərdə yeni quraşdırılmış istiqamətverici lövhələrə və yaxın zamanda tikintisi planlaşdırılan amfiteatrın yaradılacağı əraziyə baxış keçiriblər. Sonra şəhərin turizm potensialı ilə tanışlıq Turizm İnformasiya Mərkəzində davam etdirilib.

Qeyd edək ki, artıq Naftalanda "Qaşaltı bağları" turizm konsepti üzrə ilkin araşdırma və qiymətləndirmə işlərinə başlanılıb. Qonaqlar bu sahədə görülən işlərlə tanışlıq üçün şəhərin Qaşaltı Qaraqoyunlu kəndinə səfər edərək burada nar bağlarına baxıblar.

Sonda vurğulanıb ki, müalicəvi xüsusiyyətlərinə görə dünyada yeganə olan Naftalan neftinin Azərbaycan brendi olaraq dünyada tanıdılması istiqamətində aparılan işlər Naftalanın dünyanın turizm şəhərlərindən birinə çevrilməsində öz faydasını verəcəyi şübhəsizdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.-9 oktyabr.- S.6.